*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 may 2016-cı il № 39 (2054) Qiyməti 25 qəpik

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Ermənistanın nüvə təhdidi və şantajına son qoyulmalıdır

***Mayın 23-də İstanbulda Dünya Humanitar Sammiti işə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Sammitdə iştirak ediblər.***



Sammitin açılış mərasimi dünyanın humanitar fəlakət bölgələrində mövcud vəziyyəti və həmin ərazilərə yardımların çatdırılmasını əks etdirən təqdimatla davam etdi.

BMT-nin baş katibi Pan Gi Mun çıxış edərək Humanitar Sammitin keçirilməsinə verdikləri dəstəyə görə bütün dünya liderlərinə təşəkkürünü bildirdi. Dörd il əvvəl bu ideyanın yaranmasına səbəb kimi dünyada humanitar böhranın getdikcə dərinləşdiyini deyən Pan Gi Mun bildirdi ki, bu böhran hər il dərinləşir və insanların bu sahədəki çətinlikləri daha da artır. Dünyada münaqişələrin qarşısının alınmasının vacibliyini diqqətə çatdıran Pan Gi Mun humanitar böhranların səbəbinə çevrilən siyasi sabitsizliyin qarşısının alınmasının və mülki şəxslərin daha çox qorunmasının zəruriliyini qeyd etdi. Qaçqın probleminin qarşısının alınmasında yeni forma və ideyaların yaradılmasının vacibliyini qeyd edən BMT-nin baş katibi böhran içərisində olan milyonlarla insanın problemlərinin həllində bütün dövlətləri və cəmiyyətləri həmrəy olmağa çağırdı. "Biz insanlara yaşamaq və şərəflə həyat sürmək imkanını verməliyik", - deyən Pan Gi Mun əmin olduğunu bildirdi ki, dünya liderləri bu prosesə güclü dəstək verəcək.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Sammitin dünyada ehtiyac içində yaşayan milyonlarla insanın problemlərinin həlli baxımından mühüm imkan olduğunu bildirdi. Müharibələrin, təbii fəlakətlərin, iqlim dəyişikliyinin bütün bəşəriyyətin təhlükəsizliyini və gələcəyini ciddi təhdid etdiyini deyən Rəcəb Tayyib Ərdoğan Türkiyənin humanitar problemlərin həllində fəal rol oynadığını qeyd etdi. Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin bu gün dünyanın 140-dan çox ölkəsində humanitar yardım və sosial inkişaf sahəsində müxtəlif layihələr reallaşdırdığını diqqətə çatdırdı. Hazırda qlobal humanitar yardım sisteminin mövcud problemlərin həlli baxımından səmərəsiz olduğunu qeyd edən Rəcəb Tayyib Ərdoğan bildirdi ki, bu sistemin yükünü sadəcə bəzi ölkələr öz çiynində daşıyır. Buna görə də bütün dünya ölkələri bu məsuliyyəti bərabər şəkildə bölüşməli, liderlər və beynəlxalq ictimaiyyətin nüfuzlu şəxsləri səylərini birləşdirməlidirlər.

Almaniya Kansleri Angela Merkel silahlı münaqişələrdə mülki şəxslərin həlak olmasının qarşısının alınması üçün səylərin artırılmasının vacibliyini bildirdi. O, Almaniyanın bundan sonra da humanitar yardımların dəstəklənməsi və müvafiq vəsaitin daha da artırılması istiqamətində fəaliyyətini gücləndirəcəyini vurğuladı. Bu sahədə mövcud fəaliyyətlərin əlaqələndirilməsinin əhəmiyyətini qeyd edən Kansler bununla bağlı daha səmərəli qlobal sistemin yaradılmasının vacibliyini diqqətə çatdırdı.

Küveyt Dövlətinin Əmiri Şeyx Sabah Əl-Əhməd Əl-Cabir Əs-Sabah qeyd etdi ki, bu Sammit BMT-nin öz məqsədlərinə çatması üçün mühüm vasitədir. Küveyt Əmiri bildirdi ki, yeni meyarların müəyyənləşdirilməsi, bütün dövlətlərin və beynəlxalq təşkilatların humanitar böhranın aradan qaldırılmasına fəal dəstək verməsi xüsusi əhəmiyyət daşıyır.

Mali Prezidenti İbrahim Bubakar Keyta dünyada humanitar məsələlərin müzakirə olunduğu ilk Sammitin keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndirdi. Ölkəsində bu sahədə çətinliklərdən danışan Mali Prezidenti terror qruplaşmalarının humanitar və digər sosial problemlərdən istifadə etdiyini vurğulayaraq, bu təhdidlərin qarşısının alınması üçün bütün ölkələri humanitar sahəyə sərmayə qoymağa çağırdı.

Azərbaycan Prezidenti İlham Əliyev Sammitin plenar iclasında çıxış etdi.

- Cənab sədr.

Xanım sədr.

Xanımlar və cənablar.

İnanıram ki, Sammitin nəticələri bütün dünyada humanitar böhrandan əziyyət çəkən insanların həyat səviyyəsinin yaxşılaşmasına öz töhfəsini verəcək.

Biz azərbaycanlılar qaçqınlığın və məcburi köçkünlüyün nə demək olduğunu çox yaxşı bilirik. Artıq 20 ildən çoxdur ki, bir milyondan artıq azərbaycanlı Ermənistanın hərbi təcavüzü və işğalından əziyyət çəkir. Bu təcavüz nəticəsində bizim beynəlxalq səviyyədə tanınmış ərazilərimizin 20 faizi işğal altındadır. Bir milyondan artıq azərbaycanlı qaçqına və məcburi köçkünə çevrilib.

Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı törədib. 1992-ci ildə Ermənistanın törətdiyi Xocalı soyqırımı 10-dan artıq ölkə tərəfindən soyqırım kimi tanınıb. Xocalı soyqırımı nəticəsində 613 mülki şəxs qəddarcasına qətlə yetirilib. Onların arasında 106-sı qadın, 63-ü uşaq, 70-i yaşlı insan olub. Mindən artıq adam itkin düşüb. Ermənistan Azərbaycana qarşı təcavüzkar siyasətini davam etdirir.

2016-cı ilin aprelində Ermənistan dinc Azərbaycan vətəndaşlarına qarşı yeni hücum həyata keçirdi. Bu hücum nəticəsində bizim əsgər və zabitlərimiz, o cümlədən 6 mülki şəxs qətlə yetirilib, 30-dan artıq mülki şəxs yaralanıb. Bizim kəndlərimizin atəşə tutulması nəticəsində 500-dən artıq evə ziyan dəyib, 100-dən çox ev tamamilə dağıdılıb və yandırılıb. Ermənistan ordusu mülki şəxslərə qarşı qadağan olunmuş kimyəvi silahdan, xüsusilə ağ fosfor bombalarından istifadə edib.

Ermənistan tərəfindən törədilən bütün müharibə cinayətləri sənədlərlə sübuta yetirilib və beynəlxalq müşahidəçilərə təqdim olunub. Mülki əhalimizi qorumaq üçün Azərbaycan Ordusu uğurlu əks-hücum həyata keçirdi və yalnız bundan sonra təcavüzkar düşmən dayandırıldı. Ermənistan BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə məhəl qoymur. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətrafındakı 7 rayonu işğal olunub. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün, hətta bir neçə saat ərzində icra edilir. Bizə gəldikdə isə onlar 20 ildən çoxdur kağız üzərində qalır. Bu, Azərbaycana qarşı ikili standartlar siyasətidir. Ermənistan bu qətnamələrə əməl etməli və ya bu ölkəyə qarşı sanksiya tətbiq olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Bütün region üçün başqa bir təhlükə mənbəyi Ermənistandakı istismar müddəti başa çatmış Metsamor Atom Elektrik Stansiyasıdır. Ermənistanın radioaktiv tullantılardan qanunsuz istifadə etməsinə dair məlumatlar var. Sabiq baş nazir, parlament üzvü və digər Ermənistan rəsmiləri bu ilin aprelində Ermənistanın "çirkli bomba" adlandırılan nüvə silahına malik olduğunu bəyan ediblər. Bu bəyanat müvafiq beynəlxalq təşkilatlar tərəfindən ciddi şəkildə araşdırılmalıdır. Ermənistanın nüvə təhdidi və şantajına son qoyulmalıdır. Azərbaycan səbəbkarı Ermənistan olan humanitar fəlakətin fəsadlarının öhdəsindən gəlmək üçün əlindən gələni edir.

Bizim qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün 6 milyard dollardan artıq vəsait sərf olunub. Qaçqın və məcburi köçkünlər arasında yoxsulluq səviyyəsi 75 faizdən 12 faizə endirilib. Ümumilikdə, son 12 ildə Azərbaycanda yoxsulluq səviyyəsi 50 faizdən 5 faizə enib. Azərbaycan oxşar problemlərdən əziyyət çəkən ölkələrə yardım edir və edəcək. Biz BMT-nin Ebola virusu ilə mübarizə və bərpa tədbirlərinə maddi yardım ayırmışıq. Biz əhalinin qabaqcadan xəbərdarlıq sistemi və fəlakət riski ilə bağlı informasiyaya çıxışını təmin etmək üçün müvafiq təsisatlar və maraqlı tərəflər arasında əməkdaşlığın təbliğinə sadiqik. Təşəkkür edirəm.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə naziri Avropa Parlamentinin müdafiə və təhlükəsizlik alt komitəsinin sədri ilə görüşüb



***Mayın 21-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Avropa Parlamentinin müdafiə və təhlükəsizlik alt komitəsinin sədri, Polşanın sabiq xarici işlər naziri Anna Fotiqa ilə görüşüb.***

Cəbhə xəttində baş verən son hadisələr və hazırkı vəziyyətə dair məsələlərin müzakirə edildiyi görüşdə general-polkovnik Zakir Həsənov Ermənistanın silahlı qüvvələri tərəfindən törədilən təxribatları, Azəbaycanın mülki əhalisinə və obyektlərinə qarşı ağır silahlardan, o cümlədən beynəlxalq konvensiyalarla qadağan olunan sursatlardan istifadə edilməsi faktlarını qonağın diqqətinə çatdırıb.

Müdafiə naziri, beynəlxalq birlik, o cümlədən Avropa təsisatları tərəfindən tanınan Azərbaycan ərazilərinin 20 ildən artıq müddətdə erməni işğalı altında olmasını, bunun nəticəsində bir milyondan çox soydaşımızın doğma yurd-yuvalarından didərgin düşdüyünü, danışıqlar prosesinin nəticəsiz qaldığını da bir daha xatırladıb.

"Ermənistanın yürütdüyü təcavüzkar siyasət Cənubi Qafqazda həyata keçirilən irimiqyaslı iqtisadi layihələrə, o cümlədən regional əməkdaşlığa ən böyük təhlükədir. Beynəlxalq qurumlar və ictimaiyyət ölkəmizin ərazi bütövlüyü təmin olunmaqla Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün, nəhayət ki, mütləq surətdə səylərini artırmalıdırlar", - deyə nazir bildirib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin vacibliyinə toxunan qonaq Polşanın hər zaman dostlarının və müttəfiqlərinin ərazi bütövlüyünü dəstəklədiyini xüsusi vurğulayıb.

Sülhməramlı əməliyyatlara verdiyi töhfəyə, Əfqanıstandakı missiyanın peşəkar səviyyədə icra olunmasına görə Azərbaycana dərin minnətdarlığını ifadə edən xanım A.Fotiqa ölkəmizin terrorizmə qarşı mübarizədə fəallığını da yüksək qiymətləndirib.

Avropanın enerji təminatı baxımından vacib olan Cənubi Qafqaz regionunda təhlükəsizliyin və sabitliyin təmin edilməsinə Azərbaycanın önəm verdiyini vurğulayan qonaq ölkəmizin ciddi və etibarlı tərəfdaş olduğunu xüsusi qeyd edib.

Sonda qonağı maraqlandıran suallar ətraflı cavablandırılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto Natiq İSAYEVİNDİR**

# Müdafiə naziri Baş Qərargah rəisini yubileyi münasibəti ilə təbrik edib



***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Hüseyn oğlu Sadıkovu 60 illik yubileyi münasibəti ilə təbrik edib.***

Təbrikdə deyilir:

"Sizi 60 illik yubileyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edir və ən xoş arzularımı bildirirəm.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycan Ordusu qısa müddətdə böyük inkişaf yolu keçmiş, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında əcdadlarımızın tarixi hərbi adət-ənənələrini yaşadaraq ölkəmizin müdafiə qüdrətinin artırılmasında böyük nailiyyətlər əldə etmişdir.

Əminəm ki, bundan sonra da xidməti vəzifələrinizi layiqincə yerinə yetirəcək, qarşıya qoyulmuş tapşırıqların uğurla həyata keçirilməsində, ordumuzun inkişafı və daha da qüdrətlənməsi naminə Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində, ixtisas biliklərinə dərindən yiyələnməsində və hərbi intizamının möhkəmləndirilməsində səylərinizi daha da artıracaqsınız.

Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və xidmətinizdə yeni müvəffəqiyyətlər arzulayıram."

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Avropa Parlamentinin Polşadan olan üzvü general-leytenant Məmməd bəy Sulkeviçin xatirəsini ehtiramla yad edib

***Ölkəmizdə səfərdə olan Avropa Parlamentinin müdafiə və təhlükəsizlik alt komitəsinin sədri xanım Anna Fotiqa polşalı həmyerlisi, Azərbaycan Demokratik Respublikası dövründə milli ordu sıralarında xidmət edən general-leytenant Məmməd bəy (Matsey) Sulkeviçin xatirəsini ehtiramla yad edib.***





A.Fotiqa Azərbaycan Hərbi Dəniz Qüvvələrinin katerində Böyük Zirə adası yaxınlığında hərbi xadimin xatirəsinə ehtiram əlaməti olaraq Xəzər dənizinin suları üzərinə gül dəstəsi səpələyib.

Polşa tatarlarından olan Məmməd bəy Sulkeviç 1919-cu ilin martında milli ordunun baş qərargah rəisi təyin edilib. 1920-ci ilin aprel işğalından sonra bolşeviklər tərəfindən həbs olunan və ölüm cəzasına məhkum edilən general həmin ilin iyulunda güllələnib.

Mərasimdən sonra təəssüratlarını bölüşən Avropa Parlamentinin üzvü bildirib:

- Biz ölkələrimizin tarixinə hörmətlə, ənənələrinə, mədəniyyətinə ehtiramla yanaşaraq onları təbliğ etməklə qarşılıqlı surətdə gələcəyimiz üçün zəmin yaradır, gənclərimizin tərbiyəsinə, dövlətlərimizin inkişafına, xalqlarımızın tərəqqisinə şərait yaradırıq.

Mənim ulu babam ilə bir yerdə Rus-Yapon müharibəsində vuruşan general Sulkeviçin Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli orduda xidmət edərkən qoşun hissələrinin formalaşdırılmasında, ordunun döyüş hazırlığının təkmilləşdirilməsində, uğurlu hərbi əməliyyatların keçirilməsində böyük xidmətləri olub. Məmməd bəy Sulkeviçin xatirəsi Polşada da əziz tutulur. Mənim seçicilərim arasında da çoxlu Polşa tatarları vardır.

Səfər çərçivəsində bir sıra rəsmi şəxslərlə görüşlərim olub.

Görüşlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normalarına və prinsiplərinə uyğun həlli üçün Avropa qurumlarının səylərinin birləşdirilməsinin və gücləndirilməsinin vacibliyi vurğulanıb.

Mənə qoşunların təmas xəttində baş verən son hadisələr, Ermənistan silahlı qüvvələri tərəfindən törədilən təxribatlar, Azərbaycanın mülki əhalisinə və obyektlərinə qarşı ağır silahlar vasitəsilə edilmiş hücumlar barədə də ətraflı məlumat verilib. Bu, yolverilməzdir.

Polşa hər zaman dost və etibarlı müttəfiq olan Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Mən öz tərəfimdən azərbaycanlı qaçqın və məcburi köçkünlərin məsələsini hər zaman parlament və digər səviyyələrdə qaldırıram və bundan sonra da qaldıracağam.

Azərbaycan Avropanın enerji təminatı baxımından vacib olan Cənubi Qafqaz regionunun inkişafı və təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Biz buna böyük önəm veririk. Azərbaycanın hərbi və müdafiə qabiliyyəti çox güclüdür. Biz Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizədə səylərini də çox yüksək qiymətləndiririk.

Sizin ölkənizdən mən həmişə olduğu kimi, bu dəfə də çox xoş təəssüratlarla ayrılıram.

Çox sağ olun.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Mövlan NƏSİRZADƏNİNDİR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Azərbaycan Respublikası Müdafiə nazirinin İspaniya Krallığına rəsmi səfəri başlayıb

Mayın 24-dən Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyətinin İspaniya Krallığına rəsmi səfəri başlayıb.

Səfər çərçivəsində İspaniyanın müdafiə və xarici işlər nazirləri ilə görüşlərin keçirilməsi, eləcə də hərbi hissə və hərbi sənaye kompleksinə daxil olan şirkətlərin ziyarət olunması nəzərdə tutulur.

Səfər mayın 26-dək davam edəcək.

### Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edir

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mayın 23-dən 26-dək Qarmiş-Partenkirxen şəhərində (Almaniya Federativ Respublikası) hərbi feldşerlik üzrə mübadilə proqramı, mayın 23-dən 27-dək Ankara şəhərində (Türkiyə Respublikası) strateji kommunikasiya kursu, Riqa şəhərində (Latviya Respublikası) "Hədəflərdən nəticələrə" mövzusunda konfrans, Sarayevo şəhərində (Bosniya və Herseqovina) "REGEX-16" kollektiv regional təliminin 5-ci planlaşdırma görüşü, mayın 23-dən 28-dək Norfolk şəhərində (ABŞ) NATO Müttəfiq Transformasiya Komandanlığında tərəfdaş ölkələrin hərbi nümayəndələri ilə transformasiya seminarı, mayın 25-dən 26-dək Neapol şəhərində (İtaliya Respublikası) birgə fəaliyyət strategiyası forumu keçirilir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***22 may 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 20 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Göyarx, Yarımca, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, kəndləri yaxınlığında, həmçinin Goranboy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***23 may 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 15 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam və Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***24 may 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 18 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Azərbaycan Respublikası Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonunun Ayqedzor kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Göyarx, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***Ön xətdə olarkən cəsur tankçılarımızın aprel döyüşlərindəki şücaətləri barəsində də məlumat aldım. Ermənistan ordusu tərəfindən işğal edilmiş ərazilərimizin bir qisminin azad edilməsində tankçılarımız xüsusi fəallıqları ilə seçiliblər. Belə tankçılarımızdan biri leytenant İsabala Məmmədovdur.***

*Nümunəvi xidmət*




Onunla döyüşçülərimizin ələ keçirib möhkəmləndiyi yüksəklikdə görüşüb söhbət etdik. Komandiri olduğu tank təzə qazılmış səngərdə maskalanmışdı. Taqım komandirinin başı heyət üzvlərilə birlikdə döyüş texnikasına baxışa qarışmışdı. Onlar tanka həvəslə qulluq göstərirdilər.

- Tank şəxsi avtomobildən də vacibdir, - taqım komandiri gülümsünür. - Gərək yaxşı qulluq göstərəsən ki, səni yarı yolda qoymaya, döyüşdə dara düşməyəsən. Son əməliyyatda hamımızın üzünü ağ elədi.

Artıq bir neçə ildir ki, ordumuzda tank heyətləri tam şəkildə peşəkar mütəxəssislərdən komplektləşdirilir. Bu, tankçılarımızın döyüş hazırlığının artırılmasına bilavasitə təsir göstərən amildir. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları olan tuşlayıcı-operator və sürücü-mexaniklər öz vəzifələrinə daha peşəkarcasına yanaşır və getdikcə ustalıqlarını artırırlar. Döyüş texnikasını idarə edənlərin nəyə qadir olduğunu isə aprel döyüşləri açıq-aydın göstərdi. Həmin döyüşlərdə qazanılmış uğurlarda tankçıların da xüsusi payı var.

Zabit İsabala Məmmədov haqqında mayor Qafqaz Əsgərov xoş sözlər dedi. Ümumiyyətlə, bu zabit xidmət prosesində intizamı, bacarığı, tabeliyindəki şəxsi heyətə tələbkarlığı və qayğıkeşliyi ilə seçilib.

- Leytenant Məmmədov son döyüşlərdə öz heyətilə düşmənə qarşı mərdliklə vuruşdu, - mayor Qafqaz Əsgərov dedi. - Bu mövqelərin ələ keçirilməsində və saxlanmasında onun komandiri olduğu taqımın heyətinin də şücaəti böyük olub. Ona görə İsabala Məmmədov da komandanlığın mükafatlandırdığı hərbçilər sırasındadır. Döyüşlərdə göstərdiyi fədakarlığa görə birlik komandiri tərəfindən aprelin 5-də leytenant rütbəsinə təqdim edilib və Müdafiə naziri tərəfindən bu rütbəyə layiq görülüb.

İsabala Ramiz oğlu Məmmədov 13 il gizir rütbəsində xidmət edib. Zabit kursunu bitirdikdən sonra o, kiçik leytenant rütbəsi alıb və ilyarım taqım komandiri olub.

Onu qeyd edim ki, müasir texnikanın mövcudluğu hələ döyüş hazırlığının yüksək olmasına dələlət etmir. Texnikanı idarə edən insandır, döyüşçüdür. Bu baxımdan şəxsi heyətin peşəkarlığı və hərbi qulluqçuların döyüş ruhu hərbi əməliyyatlarda həlledici önəm daşıyır.

Tank elə hərbi texnikadır ki, onu mükəmməl idarə etməyi bacardıqda, heyətin bütün üzvləri öz vəzifələrini mükəmməl yerinə yetirdikdə döyüş meydanında düşmənə qarşı olduqca zəhmli və məhvedici qüvvəyə malik olur. Leytenant Məmmədovun heyəti də döyüşlərdə bunun şahidi olub.

İki övlad atası olan İsabala əslən Göyçə mahalının Zod kəndindəndir. 1988-ci ildə Ermənistan rəhbərliyinin təhriki ilə onların da ailəsi öz dədə-baba yurdundan qovulanda, İsabalanın 7 yaşı olub. Amma orada soydaşlarımızın ermənilərin hansı vəhşiliklərlə üzləşdiyi barədə valideynlərindən, yaxınlarından çox eşidib. Orduya qayıdıb xidmət etməsinin bir səbəbi də düşmənə olan nifrətidir.

- Əmim Şahbaz Məmmədov da Qarabağ uğrunda döyüşlərdə iştirak edib, - leytenant Məmmədov deyir. - Ağdərədə aparılan əməliyyatlarda qəhrəmanlıqlar göstərib, şəhid olub. Samux rayonunda orta məktəbə onun adı verilib. Əmimin yolunu davam etdirirəm. Son döyüşlərdə onun qisasını düşməndən aldım.

Taqım komandirinin sözlərinə görə, bölmələrimizin hücumu o qədər güclü oldu ki, düşmən Azərbaycan əsgərinin qarşısında duruş gətirə bilmədi, qaçmağa başladı. "Döyüş meydanında düşmən xeyli itki verdi, nə qədər tankı, maşını vuruldu. Bütün bölmələrimizlə birlikdə işğalçıları ərazilərdən qovduq. Düşmən əks-hücumla yüksəklikləri qaytarmaq istəyirdi, amma buna gücü çatmadı. Biz irəli getməyə, digər torpaqlarımızı da mənfur Ermənistan ordusundan təmizləməyə hazırıq."

Leytenantın ailəsi də son döyüşlərdə qazandığımız uğurlar barədə artıq eşidib, qələbəmizə sevinib. Azərbaycan əsgərinin mühüm yüksəklikləri azad etdiyini eşidəndə atası Ramizin gözləri yaşarıb.

- Mən istəyərdim ki, doğma Göyçəyə, kəndimizə də tankımla gedim, - deyir İsabala. - O yerlərə qayıtmaq həm də valideynlərimin arzusudur. Atamın bir sözü var: deyir dünyada cənnəti axtarsan, Göyçə mahalına get. Onun 63 yaşı var, ömrünün ən mənalı vaxtını o yerlərdə keçirib. Ora bizim Vətənimizdir və heç vaxt bunu unutmayacağıq. Ermənilər kəndimizin adını dəyişiblər. Orada qızıl mədənləri olub. Amma xeyrini ermənilər görüblər. İndi onlar Kəlbəcərin ərazisindən də qızıl çıxarırlar.

İnanıram ki, o gün gələcək. Biz öz ordumuza, tankçılarımıza çox inanırıq. Bu döyüşlərdə hər kəs Azərbaycan Ordusunun gücünü gördü.

Tankçılarımızın əhval-ruhiyyəsi çox yaxşıdır, hamı bir nəfər kimi Ali Baş Komandanın əmri ilə döyüşməyə, digər ərazilərimizi də azad etməyə hazırdır.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

## Avropa qurumları Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün səylərini artırmalıdır

Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq həlli üçün Avropa qurumlarının səylərinin birləşdirilməsi və artırılması vacibdir. Münaqişənin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini tam təmin edəcək həllinə alternativ yoxdur.

Bu fikirləri Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov Avropa Parlamentinin müdafiə və təhlükəsizlik alt komitəsinin sədri, Polşanın sabiq xarici işlər naziri Anna Fotiqa ilə görüşündə səsləndirib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və Avropa Parlamenti, digər Avropa təsisatları arasında əməkdaşlığın hazırkı vəziyyəti, gündəlikdə duran məsələlər, Ermənistan-Azərbaycan münaqişəsi və bu münaqişənin həlli ilə bağlı danışıqlar ətrafında fikir mübadiləsi aparılıb.

Ölkəmizdə müxtəlif sahələrdə aparılan islahatlar, demokratiya və insan haqlarının təminatının inkişafına töhfə verən layihələrin icrası, eləcə də Prezident İlham Əliyev tərəfindən imzalanan əfv fərmanları haqqında geniş məlumat verən X.Xələfov Azərbaycanın Avropa qurumları ilə əməkdaşlıqda maraqlı olduğunu diqqətə çatdırıb. Ölkəmizin qarşıya qoyduğu prioritetləri, iqtisadi potensialı, qeyri-neft sektorunun inkişafı, hərbi və müdafiə qabiliyyəti haqqında danışan nazir müavini regionun inkişafı və təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın oynadığı rolu diqqətə çatdırıb.

Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində Ermənistan silahlı qüvvələri tərəfindən törədilən təxribatlar, azərbaycanlı mülki əhaliyə və mülki obyektlərə qarşı ağır silahlar vasitəsilə edilmiş hücumlara toxunan X.Xələfov status-kvonun saxlanmasının qəbuledilməz olmasını Ermənistandan başqa bütün tərəflərin etiraf etdiyini vurğulayıb və bu xüsusda Avropa İttifaqının bəyanatlarını xatırladıb.

*Medallı igidlərimiz*

# Aprel döyüşlərinin igidləri



Aprelin ilk günlərində döyüşlərin fəal iştirakçısı olmuş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunan kapitan Anar Abbasovla xidmət yerində görüşdüm. Döyüş başlamazdan əvvəlki vəziyyəti xatırlayan zabit qeyd etdi ki, düşmən artilleriyadan əvvəlcə mövqelərimizi, sonra isə cəbhə xəttinə yaxın yaşayış məntəqələrini vurmağa başladı.

- Əvvəlcə onlar cavab atəşimizə məhəl qoymurdu, - deyir döyüşçü. - Sonra irəli getmək barədə əmr aldıq. Bir neçə gün davam edən döyüşdən sonra ermənilər susmağa məcbur etdik.

Zabit sonuncu döyüşlərdə komandiri olduğu bölmənin uğurlu fəaliyyətindən bəhs edərək dedi ki, bölmələrimiz bir neçə istiqamətdə döyüşmək barədə əmr almışdı.

- Deyilən vaxtda şəxsi heyət döyüş xəttinə çıxdı, - deyə zabit A.Abbasov sözünə davam edir. - Cəbhəboyu döyüş başlamışdı. Düşmən yaxınlığındakı kəndimizə toplardan və qrad qurğularından mərmilər yağdırırdı. Əvvəlcə düşmənin atəş nöqtələrini müəyyən etdik və onların davamlı atəş mövqelərini susdurduq. Biz döyüşə səhərə yaxın başlamışdıq. Düşmən mövqelərinin dərinliyində bir neçə istiqamətdə tanklar köməyə gəlirdi. Onların dörd tankını və bir "Kamaz"ını məhv etdik. Tankları kiçik çavuşlar Ruslan Şahbazov və Məftun Cəfərov vurdular. Yük maşınını isə çavuş Aslan Hüseynov sıradan çıxartdı.

Zabit deyir ki, bu, döyüşün ilk günündə bir bölmənin əldə etdiyi nailiyyət olub. Növbəti döyüşlərdə müxtəlif istiqamətlərdə də onun tabeliyində olan bölmələr düşmənə sarsıdıcı zərbələr vurub. Belə ki, döyüşlərin ən uğurlu qəhrəmanı hesab olunan kapitan Mirdamət Bağıyev, düşmənin yeddi zirehli texnikası da daxil olmaqla, üç yük və bir minik avtomobilini sıradan çıxarıb. Əlbəttə, yüksək təlim görmüş bacarıqlı zabitdən hamı belə bir nəticə gözləyirdi.

Müsahibim kiçik çavuş Əli Şirinovun igidliyindən də danışdı. Bildirdi ki, sürücü-mexanik olan bu döyüşçü yanıq xəsarətləri alsa da, idarə etdiyi döyüş maşınını son anda çıxış xəttinə qaytara bilmişdi.



Söz yox ki, savaş meydanında yüksək döyüş bacarığı ilə fərqlənən oğullarımız çox olub. Məhz belə qətiyyətli döyüşçülərimizin sayəsində bir neçə istiqamətdə düşməni geri oturda bilmişik. Aprel döyüşlərində kapitan Anar Abbasovun tabeliyində olan bölmələr də yüksək döyüş bacarıqlarını nümayiş etdirərək düşməni ciddi itkilərə məruz qoydu. Azərbaycan döyüşçüsü bir daha təsdiq etdi ki, erməni tapdağı altında qalan torpaqlarımızı azad etməyə qadirdir.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

*Tibb xidməti*

# Şəfalı əlləriniz var olsun!

***Ordumuzun sürətli inkişafı və qazandığı nailiyyətlər hərbi tibb sahəsinə də təsirsiz ötüşməyib. Silahlı Qüvvələrimizdə ən müasir tələblərə cavab verən tibb müəssisələri mövcuddur. Burada çalışan savadlı, xeyirxah həkimlər hər an zabit və əsgərlərimizin sağlamlığı keşiyindədirlər. Bu günlərdə Silahlı Qüvvələrin Baş Klinik Hospitalının qastroenterologiya bölməsinə baş çəkib yaradılmış şəraitlə tanış olduq.***



Bölmə rəisi tibb xidməti polkovnik-leytenantı Tərlan Abbasov bizimlə söhbətində dövlətin bu sahəyə olan diqqətindən, tibbin sürətli inkişafından ağızdolusu danışaraq bildirdi ki, bölmə ən müasir tibbi avadanlıqlarla təmin olunub və peşəkar tibb heyəti ilə komplektləşdirilib. "Bölmə mədə-bağırsaq və qaraciyər xəstəliklərinin müalicəsi üzrə ixtisaslaşıb. Hepatit xəstələrinin müasir antiviral (peqasys, copequs) yollarla müalicəsi uğurla həyata keçirilir. Bundan başqa, 2006-cı ildən burada qaraciyər biopsisi, müalicə diaqnostikası, serrozlu xəstələrdə parasentez prosesi aparılır. Gülhanə Tibb Akademiyası ilə davamlı əlaqələrimiz var. Hərbçilərin və onların ailə üzvlərinin xidmətlərində daim hazırıq."

Tərlan həkim 1994-cü ildə Azərbaycan Tibb Universitetini bitirdikdən sonra bir müddət Lənkəran rayon xəstəxanasında işləyib. Lakin hərb sənətinə olan sevgisi onu ordu sıralarına gətirib. Vətənimizi müdafiə edənlərin sağlamlığının keşiyində dayanmağı özünə həyat amalı seçib. 1998-ci ildən ordudadır. 2002-ci ilə kimi əlahiddə tibb taborunda xidmət edib. 2002-2006-cı illərdə Türkiyədə Gülhanə Tibb Akademiyasında daxili xəstəliklər üzrə mütəxəssis kursunu bitirib. Bir çox jurnallarda elmi məqalələri dərc olunub. Həmçinin ölkə daxilində keçirilən konfranslarda da fəal iştirak edir.

Bölmə rəisi aprel hadisələri zamanı ön xəttə ezam olunub. O, təəssüratlarını bölüşərək qeyd etdi ki, ötən illərlə müqayisədə hazırda ordumuzda hərbi tibb xidməti sürətli inkişaf edib. "Müasir avadanlıqlar, diaqnostik aparatlar hərtərəfli müayinələrin aparılmasına imkan verir. Səyyar hospitallarda həm cərrahi, həm də digər müayinə və müalicələr döyüşçülərə yerindəcə tibbi qulluq göstərməyə imkan verir."

Təcrübəli qastroenteroloq İradə Əhmədova bu bölmədə 1992-ci ilin sentyabrından çalışır. Vətənimizin başının üstünü qara buludlar alanda bu xanımın vətənpərvərlik sevgisi onu hərbi şəfa ocağına gətirib. Ölkədə və xaricdə keçirilən bir çox konfranslarda iştirakından söz açan həkim Avstriyada, Türkiyənin Antalya, Samsun şəhərlərində və Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən hərbi-tibbi konfranslarda iştirakından danışdı. Qeyd etdi ki, bu tədbirlər onların peşə hazırlığının formalaşmasına zəmin yaradır. İradə xanıma görə, həkimlik daim öyrənməyi, təkmilləşməyi, müasir üsullar axtarmağı tələb edən bir peşədir. "Ötən illərlə müqayisədə indi xəstələrimizin sayı əhəmiyyətli dərəcədə azalıb. Bu isə orduda məişət şəraitinin yaxşılaşması və effektiv qidalanma ilə bağlıdır. İndi hərbi hissələrdə milli xörəklərimiz hazırlanır ki, bunun üçün də nə qədər təcrübəli qadın işə cəlb olunub."

Qastroenteroloq Lalə Salayeva da bölmənin peşəkar həkimlərindəndir. 19 ildir ki, hospitalda çalışır. Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunda və Hərbi Tibb Fakültəsində kurs keçib. Lalə xanım deyir ki, xəstəliklərin səbəblərini aşkar edib müvafiq tədbirlər görmək üçün adi həkim olmaq kifayət deyil. "Mən bütün xəstələrimlə doğmalarım kimi davranır, onlara ana-bacı olmağa çalışıram."

Həm hərtərəfli biliyə, həm də yüksək əxlaqi dəyərlərə malik olan həkimə yaxşı həkim deyirik. Çünki yüksək mənəvi dəyərlərə malik olmayan bir insan heç zaman yaxşı həkim ola bilməz. Sokrat deyirdi: "Yaxşı bir həkimdə dörd xüsusiyyət vardır: nəzakətlə dinləmək, ağıllı danışmaq, diqqətlə düşünmək və tərəfsiz qərar vermək." Bu xüsusiyyətləri həmsöhbət olduğum hər üç həkimdə də gördüm.

Bölmənin baş tibb bacısı baş çavuş Nabat Bağırova təcrübəli tibb işçilərindəndir. 2001-ci ildən hospitalda çalışır. 14 gün Serbiyada, 10 ay isə Gülhanədə kurs keçib. Hər xəstəyə məsuliyyətlə qulluq göstərir.

Tərlan həkimlə palataları gəzib xəstələrə baş çəkərkən tibb bacısı Nailə Bayramova ilə tanış oldum. Öyrəndim ki, 1992-ci ildən hospitalda işləyir. Ona baş çavuş hərbi rütbəsi 1999-cu ildə verilib. Tibb bacısı nümunəvi xidmətinə görə 4 medal və fəxri fərmanlarla mükafatlandırılıb. Altı aydır ehtiyata buraxılan Nailə xanım mülki işçi kimi yenə də doğma kollektivdədir.

Bölmədə hər kəsin adını hörmətlə çəkib haqqında danışdığı, müharibə iştirakçısı olan tibb bacısı Reyhan Ağayeva ilə görüşüb söhbətləşmək istəyəndə bildirdilər ki, o, axşam növbəsindədir. Amma haqqında eşitdiklərim məni bu xanımla tanışlığa sövq etdi. Telefon nömrəsini götürərək onunla əlaqə saxladım. Öyrəndim ki, Füzuli rayonunda anadan olub. Rayon Mərkəzi Xəstəxanasında tibb bacısı işləyib. Vətənimizin ağır günlərində rahat iş yerini qaynar döyüş mövqeləri ilə əvəz edib. Səsindən Vətən həsrəti duyulan Reyhan xanım deyir ki, o qanlı-qadalı günləri heç zaman unuda bilməyəcək. "1992-ci ildə doğma rayonumuzun müdafiəsində iştirak etmişəm. Çox çətin zaman idi. Tibbi ləvazimatlar çatışmırdı. Lakin hər bir şəraitdə sən özünü itirməməli, təmkinli, dözümlü olub xəstənin, yaralının sağalmasına ümid verməlisən. Yaralılar həddindən çox idi. Yaxşı yadımdadır, bir dəfə gün ərzində 172 yaralı qəbul etmişdik. Bütün çatışmazlıqlara baxmayaraq biz var gücümüzlə işləyirdik."

Baş çavuş Məsmə Hüseynova, çavuş Xuraman Xeyrullayeva, Gülşad Ağayeva və Dilarə Yusifova da bölmənin bacarıqlı tibb bacılarıdır.

Bölmədə müalicə olunan əsgərlər Əli Qarayev, Qiyas Mirzalıyev, Elməddin Əliyev, Elvin İbrahimzadə və başqaları müasir şəraitə görə minnətdarlıqlarını bildirərək həkimlərin, tibb bacılarının diqqət və qayğısından razılıq etdilər.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Şəhid hərbçilərin təltif edildikləri medallar ailə üzvlərinə təqdim olunub

Mayın 23-də Tovuz rayon İcra Hakimiyyətində ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş gizir Cəfərov Mirsalam Təvəkkül oğlunun ölümündən sonra Prezident İlham Əliyevin Sərəncamı ilə təltif edildiyi "İgidliyə görə" medalı ailəsinə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, mərasimdə rayon icra hakimiyyətinin başçısı Tofiq Zeynalov, Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Abdulla Qurbani və başqaları çıxış edərək, işğalçı Ermənistan ordusu tərəfindən atəşkəsin daim pozulduğunu, Azərbaycan Ordusunun mövqelərinin və sərhədyanı kəndlərin atəşə məruz qaldığını diqqətə çatdırıblar. Bildirilib ki, aprelin 2-dən 5-dək mənfur qonşularımız tərəfindən təmas xəttində növbəti təxribatlar törədilib. Azərbaycan Ordusu düşmənin layiqli cavabını verib.

Tədbirdə vurğulanıb ki, işğal altındakı torpaqlarımız tezliklə azad olunacaq, Azərbaycanın dövlət bayrağı Xankəndidə, Şuşada və digər işğal edilmiş ərazilərimizdə dalğalanacaq.



Sonra aprelin 2-dən 5-dək təmas xəttində ermənilərin təxribatının qarşısını alarkən şəhid olmuş Tovuz rayonunun Bayramlı kənd sakini gizir Mirsalam Cəfərovun ölümündən sonra təltif olunduğu "İgidliyə görə" medalı şəhidin atası Təvəkkül Cəfərova təqdim olunub. Şəhidin atası övladının göstərdiyi qəhrəmanlıqdan qürur duyduğunu bildirib. Qeyd edib ki, torpaqlarımızın düşmən tapdağından azad olunması üçün özü də yağı düşmənlə döyüşə hazırdır.

* * *

Qoşunların təmas xəttində erməni işğalçıları ilə döyüşlərdə şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçuları kapitan Orucov Mühüd Qurban oğlu və baş leytenant Namazov Elvin Məmməd oğlu "İgidliyə görə", əsgər Əliyev Orxan Məhəmməd oğlu isə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medallarla təltif olunublar.

Şəhid hərbçilərin layiq görüldükləri medalların təqdim olunması ilə əlaqədar Qazax rayonunda mərasim keçirilib.



Rayon rəhbərliyinin, Müdafiə Nazirliyinin məsul işçilərinin, ictimaiyyət nümayəndələrinin, ağsaqqalların, gənclərin iştirakı ilə keçirilən mərasimdə şəhidlərin şücaətindən, onların qəhrəmanlıqlarından bəhs edilib.

Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov, Müdafiə Nazirliyinin nümayəndəsi, polkovnik Abdulla Qurbani tədbirdə çıxış edərək, erməni işğalçılarının bütün təxribat cəhdlərinin qarşısının ordumuz tərəfindən qətiyyətlə alındığını, düşmənə layiqli cavab verildiyini bildiriblər.

Sonra medallar şəhidlərin ailə üzvlərinə təqdim olunub.

Şəhid hərbçilərin valideynləri övladlarının xatirəsinin əziz tutulduğuna, ailələrinə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

# Dünya birliyi Metsamor AES-in bağlanması üçün Ermənistana ciddi təzyiq göstərməlidir

Ermənistan Cənubi Qafqaz regionunda yeganə radioaktiv təhlükə mənbəyidir. Dünya birliyi Ermənistanın regiondakı pozucu mövqeyini bir daha diqqətlə təhlil etməli, Metsamor AES-in bağlanması ilə bağlı bu ölkəyə ciddi təzyiq göstərməlidir.

Bu sözləri Gürcüstan Azərbaycanlılarının Milli Konqresinin sədri Əli Babayev mayın 23-də Tbilisidə keçirdiyi mətbuat konfransında söyləyib. O bildirib ki, apreldə Gürcüstan ərazisində uran maddəsini satmaq istəyən iki qrup ifşa olunub. Onlar əllərində olan uranı təqribən 3 milyon ABŞ dollarına satmaq istəyiblər. Bu faktla bağlı artıq 19 nəfər saxlanılıb, onlardan da bir neçəsi Ermənistan vətəndaşıdır. Əsas narahatlıq doğuran məsələlərdən biri bu radioaktiv maddənin haradan gətirilməsidir. Artıq araşdırmalar zamanı bu maddənin Ermənistandan gətirildiyi, tutulan şəxslərdən birinin Metsamor AES-də, başqa birisinin isə bu ölkənin xüsusi xidmət orqanlarında işlədiyi sübut olunub.

Ə.Babayevin sözlərinə görə, məsələ artıq daha ciddi xarakter alıb. Demokratik qüvvələr mövcud təhlükənin böyüklüyünü, ciddiliyini dərk edirlər. Artıq bir neçə qeyri-hökumət təşkilatı birlikdə məsələ ilə bağlı Gürcüstanın hökumət başçısına müraciət edib. Müraciətə hökumətdən cavab verilib və məsələnin tezliklə ciddi şəkildə araşdırıldığı bildirilib.

Diqqətə çatdırılıb ki, Ermənistandakı Metsamor AES region üçün əsl fəlakət mənbəyidir. Heç kim Çernobıl faciəsini unutmamalıdır. Cənubi Qafqaz ölkələrindən nə qədər insan həmin faciənin nəticələrinin aradan qaldırılması zamanı ciddi xəsarət alıb. İndi biz regionda belə bir faciənin baş vermə təhlükəsi ilə üz-üzə qalmışıq. Heç kim Metsamor AES-in fəaliyyəti ilə bağlı nikbin proqnoz verə bilməz. Uzun müddətdir ki, istismar olunan bu stansiya artıq ciddi fəlakət mənbəyidir. Bundan təkcə Azərbaycan və türk xalqları deyil, gürcü, abxaz, osetin xalqları, eləcə də ermənilərin özləri əziyyət çəkəcəklər. Odur ki, bütün demokratik, xalqının, millətinin xoşbəxt gələcəyini düşünən qüvvələr birləşərək Metsamor AES-in bağlanması üçün səsini ucaltmalı, beynəlxalq təşkilatlardan Ermənistana təzyiqləri artırmağı tələb etməlidirlər.

Ə.Babayevin fikrincə, ermənilərin pozuculuq fəaliyyəti təkcə uran satmaq və ya Metsamor AES-lə bitmir: "Son günlər Gürcüstan ərazisində məskunlaşmış ermənilər tərəfindən separatizm meyilləri daha da güclənib. Azərbaycanlılara və türklərə qarşı müxtəlif çağırışlar eşidilir. "Krunq" terror təşkilatının Gürcüstan ərazisində yenidən fəallaşması da ciddi narahatçılıq doğurur. Gürcüstanın işğal olunmuş ərazilərindən 350 mindən çox gürcü didərgin düşüb və onlar müxtəlif bölgələrdə məcburi köçkün həyatı yaşayırlar. Bundan sui-istifadə edərək həmin ərazilərdə "çoxluq" təşkil edən ermənilər mədəni muxtariyyət tələb edirlər. Bu gün mədəni muxtariyyət tələb edənlər gələcəkdə muxtariyyət tələb edəcəklər. Bunu biz tarixdən də bilirik. Azərbaycanın işğal olunmuş ərazilərində baş verənlər məhz həmin siyasətin əyani sübutudur. Gürcüstan hökuməti bu məsələlərə ciddi yanaşmalı və ermənilərin iddialarına vaxtında tutarlı cavab verilməlidir.

**AZƏRTAC**

# "Əsgərlərimiz düşmən üzərinə şahin kimi şığıyırdılar"

Aprel döyüşləri ilə ordumuzun yeni qəhrəmanlıq səhifələri yazıldı. Bu, torpaqlarımızı illər boyu işğal altında saxlayan və bir milyondan artıq soydaşımızı yerindən-yurdundan didərgin salan ermənilər üçün gözlənilməz oldu. İşğalçılar vaxtaşırı cəbhədə atəşkəsi pozaraq mövqelərimizə hücumlar təşkil edirdilər. Düşmənin bu cür addımlar atmaqda məqsədi bəllidir. Ancaq bədnam qonşular bildilər ki, Azərbaycan xalqı torpağının bir qarışını belə güzəştə getmək fikrində deyil. Ərazi bütövlüyümüzü bərpa etməyə qadir güclü ordumuz var.



Zaman-zaman düşmən həmlələrinin qarşısını alan döyüşçülərimiz bu dəfə də qısa bir müddətə hücum əməliyyatı həyata keçirdi. Azərbaycan Ordusu bununla bir daha düşmənə anlatdı ki, o işğal etdiyi ərazilərdə rahat yerləşə bilməz. Həmin ərazilərə zorla köçürülən ermənilər də bildilər ki, onların burada əbədi məskunlaşmaq iddiaları bir gecənin içində puç oldu. Bundan sonra düşmən, söz yox ki, yeni planlar həyata keçirməkdə davam edir. Məğlubiyyətini xalqından gizlətməyə çalışan düşmən ordusunun başçıları yenə aldadıcı vədlər verməklə vəziyyətdən çıxmağa çalışırlar.

Son döyüşlərdən üzüağ çıxan şanlı ordumuzun əsgərləri böyük ruh yüksəkliyi ilə mövqelərdə xidmətlərini davam etdirirlər. Gərgin döyüşlərin getdiyi mövqelərdən birində baş leytenant Yasin Səfərovla görüşdüm. İlk baxışdan adama xoş ovqat aşılayan zabitimiz müdafiə xəttində məğrur əsgərləri ilə Vətənimizin keşiyindədir. O, daha çox təhlükə gözlənə bilən postlardan birində qərar tutub. Buradan düşmənə daha yaxşı müqavimət göstərmək mümkündür. Bunun üçün üstüörtülü davamlı atəş mövqeləri yaradıblar ki, əsgərlərimiz oradan həm müşahidə aparsınlar, həm də düşməni vaxtında susdura bilsinlər.

Zabitimizlə qısa söhbətdən məlum olur ki, o, həm C.Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb, həm də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini "motoatıcı" ixtisası üzrə bitirib. Yasin zabit kimi cəbhə bölgəsində xidmətə başlayıb. O, müdafiəsində dayandığı əraziyə yaxşı bələddir. Düşməndən hansı istiqamətdə təhlükə gözləndiyini də yaxşı bilir və qarşı tərəfi daim nəzarətdə saxlayır.

Zabit deyir ki, sonuncu döyüşlərdə Azərbaycan əsgəri özünün nəyə qadir olduğunu göstərdi. "Ali Baş Komandanın əmrinə müntəzir olan əsgərlərimiz ürəkdən döyüşürdülər. Hətta yaralananlar da döyüş meydanından çıxmaq istəmirdilər. Onlar yaralarını gizlədərək işğalçıları məhv etməkdə davam edirdilər. Əsgərlərimiz düşmən üzərinə şahin kimi şığıyırdılar. Bir neçə gün də bu cür döyüş davam etsəydi, tam əminliklə deyirəm ki, düşmən tab gətirməyib qaçacaqdı."

Zabit Yasin Səfərov ermənilər tərəfindən işğal edilən Cəbrayıl rayonundandır. Həmişə doğma yerlərin həsrətində olduğunu deyir. Elə zabit peşəsinə yiyələnməkdə məqsədi də düşmənin işğalında olan yurd yerlərimizin azad edilməsində yaxından iştirak etməkdir.

Söhbətimizdə öyrəndim ki, Yasin bir neçə gündür yuxarı vəzifəyə təyin olunub. O, döyüşlər zamanı özünü əsl zabit, komandir və bacarıqlı döyüşçü kimi təsdiq edib. Onun xidmətləri komandanlıq tərəfindən layiqincə qiymətləndirilib. Gənc bölmə komandirinə gələcək xidmətlərində uğurlar diləyib ondan və döyüşçülərindən ayrılıram.

**B.MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

*Ordu və cəmiyyət*

# "Biz hamımız əsgərik"

Rubrikamızın qonağı Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Aydın Mirzəzadədir.



Müstəqil dövlətçiliyimizin ordu quruculuğu ilə sıx bağlı olduğunu bildirən millət vəkili Aydın Mirzəzadə Silahlı Qüvvələrin hazırlıq səviyyəsi, müasir texnika və silahlarla təchizatı məsələlərinə toxunaraq, dövlətin qüdrətini bir dövlətin mövcudluğunu şərtləndirən amillərdən saydığını dedi. "Bildiyimiz kimi, 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra ordu quruculuğu məsələlərinə ciddi diqqət yetirildi. Vahid komandanlıq yaradıldı. Ordunun təminatı, peşəkar kadrlarla komplektləşdirilməsi və NATO standartlarına uyğun qurulması əsas istiqamət kimi götürüldü. Tədricən Azərbaycan Ordusu xalqımızın qürur duya biləcəyi yenilməz orduya çevrildi. Ötən 20 ildən artıq müddətdə ölkənin müdafiəsi sahəsində aparılan böyük quruculuq işləri Azərbaycan Ordusunun dünyanın ən güclü əlli ordusu siyahısında yer almasına gətirib çıxardı. Artıq Ermənistanda belə ordumuzun qüdrətini etiraf edirlər. Bu il aprelin əvvəllərində baş verən döyüşlərdən sonra Ermənistan rəhbərliyi Azərbaycan Ordusunun müasir silahlarla silahlandığını və bir çox üstünlüklərə malik olduğunu dilə gətirməyə məcbur oldu. Hesab edirəm ki, ölkədə ordu quruculuğu prosesi məqsədyönlü siyasətin nəticəsidir."

Bu gün Azərbaycan Ordusunun əsgər və zabitlərinin yüksək döyüş ruhuna əminliyini bildirən millət vəkili aprelin əvvəllərində düşmənin irimiqyaslı silahlı təxribatlarının qarşısının qətiyyətlə alınmasından və mühüm əhəmiyyətli yüksəkliklərin geri qaytarılmasından qürurla danışdı. "Ən əsası Ermənistan ordusunun məğlubedilməzliyi haqqında yaranan mif dağıdıldı. Artıq Ermənistan böyük qorxu içərisindədir və Azərbaycan Ordusunun hər an hücuma keçə biləcəyini düşünür. Müxtəlif vasitələrlə özünü mümkün ola biləcək döyüşlərdən və qarşıdurmalardan qorumağa çalışır. Demək olar ki, Dağlıq Qarabağ ərazisindən ermənilər kütləvi şəkildə köç edirlər. Ermənistanın hərbi arsenalının əsasını köhnə silahlar təşkil edir. Düşmənin zəif bir orduya malik olması artıq göz qarşısındadır. Qeyd olunası ən vacib məqamlardan biri də Ermənistan ictimaiyyətinin bu məsələlərlə bağlı açıq şəkildə fikirlərini səsləndirməsidir. Onlar öz övladlarını Sarkisyan rejiminin yürütdüyü çirkin siyasətə qurban vermək istəmirlər. Hətta kütləvi aksiyalarda övladlarının digər ölkənin torpaqlarında həlak olmasını pisləyir və belə hallara son qoyulmasını tələb edirlər. Bunun nəticəsidir ki, həmin aksiyalarda Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından çıxarılması çağırışları da eşidilməkdədir."

Millət vəkilinin yanaşmasına görə, bu gün Azərbaycan Ordusunun ən müasir silahlarla təchiz edilməsi, şəxsi heyətin yüksək peşəkarlığı, döyüş əzmi və ordu ilə xalqın sıx birliyi o nəticəyə gəlməyə əsas verir ki, Dağlıq Qarabağ məsələsi sülh danışıqları yolu ilə həll edilmədiyi halda münaqişənin hərb yolu ilə həlli qaçılmazdır.

Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı əsasında Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə orduda aparılan genişmiqyaslı uğurlu islahatlardan danışan millət vəkili vurğuladı ki, bu gün orduda müasir hərbi şəhərciklər tikilib istifadəyə verilir və hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün müvafiq tədbirlər görülür. Doğrudan da, hərbçilərin mənzil təminatı istiqamətində böyük irəliləyişlər əldə edilib. Orduda şəffaflığın bariz nümunəsi olan "Açıq qapı günü"ndə bütün hərbi hissələrin qapıları əsgər valideynlərinin, onların yaxınlarının və ictimaiyyətin üzünə açıq olur.

Ordumuzun yüksək hazırlığında vaxtaşırı keçirilən təlimlərin böyük rolundan bəhs edən A.Mirzəzadə çoxsaylı canlı qüvvənin, müxtəlif silah və texnikanın cəlb edildiyi irimiqyaslı təlimlərin son dövrdə Türkiyə Silahlı Qüvvələri ilə birgə keçirilməsi amilinə də böyük əhəmiyyət verildiyini diqqətimizə çatdırdı. "Birgə təlimlərin keçirilməsi həm Türkiyə təcrübəsinin öyrənilməsi, həm də şəxsi heyətin döyüş hazırlığının hansı səviyyədə olmasını göstərir. Artıq Azərbaycanda təlim görməyən əsgər və zabit yoxdur. Müasir tələblərə cavab verən hərbi hissələr təlimlərdə yüksək döyüş hazırlıqlarına malik olduqlarını nümayiş etdirir. Lakin Ermənistan ordusu belə təlimlər keçirə bilmir. Çünki işğalçı ölkənin müasir silah və texnikası, kifayət qədər maliyyə vəsaiti yoxdur."

- Fəxr ediləsi faktdır ki, apreldə baş verən hərbi qarşıdurmada Azərbaycan Ordusu öz gücünü dünyaya göstərdi, - deyə Milli Məclisin üzvü bildirdi. - Ermənistan hökuməti birmənalı şəkildə bilməlidir ki, atəşkəs əbədi ola bilməz. Torpağı işğal altında olan xalq, dövlət öz probleminə son qoymaq üçün Silahlı Qüvvələrindən istifadə etmək hüququna malikdir.

Aprel döyüşlərinin hər bir Azərbaycan vətəndaşını sınağa çəkdiyini söyləyən müsahibim bildirdi ki, bu gün Azərbaycanda ordu və cəmiyyət bölgüsü yoxdur. "Biz hamımız əsgərik. Bu, aprel döyüşləri zamanı bir daha öz təsdiqini tapdı. Xalq ordu ilə birlikdə idi. Gündəlik xəbərlər izlənilirdi. Keçmiş döyüşçülər, hər kəs komandanlığa müraciət edib könüllü ordu sıralarına yazılmalarını xahiş edirdilər. Bəli, aprel döyüşləri təkcə ordumuzu deyil, ümumilikdə cəmiyyətimizi də sınaqdan keçirdi. Azərbaycan xalqı bu sınaqdan üzüağ, alnıaçıq çıxdı."

Vətəni şərəflə qoruyan, dövlətinə, xalqına sədaqətlə xidmət edən Azərbaycan Ordusunun hər bir əsgər və zabiti ilə qürur duyduğunu deyən Aydın müəllim sonda onlara arzu və istəklərini ifadə etdi. O, hərbçilərimizin çətin və şərəfli xidmətinin bu gün Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində əsas amillərdən olduğunu qeyd edərək, onlara cansağlığı, xidmətlərində uğurlar arzuladı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Təcrübə qələbəni təmin edən amillərdəndir...

Şəxsi heyətin döyüş hazırlığının artırılması məqsədi ilə müntəzəm olaraq Silahlı Qüvvələrimizin hərbi hissə və birləşmələrində təlim-məşqlər keçirilir. Bu günlərdə Sanitar-Epidemioloji Nəzarət Mərkəzində "Səyyar sanitar-epidemioloji dəstənin hərəkəti, açılması və səhra şəraitində işin təşkili" mövzusunda taktiki-ixtisas təlimə başlanıldı. Üç gün davam edən təlimə bütün şəxsi heyət və texniki vasitələr cəlb olunmuşdu. Biz təlim meydanına baş çəkəndə artıq vacib işlər görülmüşdü. Bütün texniki vasitələr şəraitə uyğun olaraq əraziyə yerləşdirilmiş və quraşdırılmışdı. Zabitlər və həkim-mütəxəssislər mövzuya uyğun olaraq üzərlərinə düşən tapşırıqları peşəkarlıqla yerinə yetirirdilər. Vaxt itirmədən təlim iştirakçıları ilə görüşüb söhbət etdik.



- Əsrlərin sınağından çıxmış həqiqətdir ki, təcrübə həmişə təlimdə qazanılır. Dahi sərkərdələr də gözəl deyiblər ki, təlimdə nə qədər çox tər töksən, döyüşdə o qədər az qan tökərsən, - deyə Sanitar-Epidemioloji Nəzarət Mərkəzinin rəisi tibb xidməti polkovnik-leytenantı Müşfiq Hümbətov bizimlə söhbətə başladı. - Təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq şəxsi heyət təlim keçib təcrübə və səriştəsini artırır. Həm təlimin, həm də xidmətin yüksək səviyyədə aparılması üçün mərkəz zəruri olan bütün texniki vasitələrlə təmin olunub. Təlimin keçirilməsində əsas məqsəd səhra şəraitində bakterioloji vasitələrin, radioaktiv və zəhərli maddələrin indikasiyası, sanitar-epidemioloji kəşfiyyatın aparılması və ocaqda deqazasiya, dezaktivasiya və dezinfeksiya tədbirlərinin həyata keçirilməsi üzrə şəxsi heyətin vərdişlərinin daha da təkmilləşdirilməsidir. Mərkəzin həkim-mütəxəssisləri qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəlirlər. Təlim planına uyğun olaraq tapşırıqlar nəzərdə tutulduğu kimi mərhələ-mərhələ yerinə yetirilir. Mərkəzin şəxsi heyəti vəzifələrin öhdəsindən bacarıqla gəlir.



Söhbətimizi təlimdə yaxından iştirak edən Silahlı Qüvvələrin baş sanitar həkimi tibb xidməti polkovnik-leytenantı Elyar Qayıbovla davam etdirdik. O bildirdi ki, belə təlimlərin müntəzəm keçirilməsinin böyük əhəmiyyəti var. "Çünki şəxsi heyətin bilik və təcrübəsini artırması üçün geniş imkanlar açılır. Həkim-mütəxəssislər ərazidəki sudan, torpaqdan nümunələr götürüb təhlillər aparırlar. Çirklənmə ocağının sərhədlərini müəyyənləşdirir və qarşısını almaq üçün zəruri tədbirlər həyata keçirirlər. Belə səmərəli təlimlər şəxsi heyətin biliklərinin təkmilləşdirilməsinə xidmət edir."

Təlimdə şəxsi heyətlə görüşüb söhbət etdik, işlərin gedişi ilə maraqlandıq. Zabitlər və həkim-mütəxəssislər bölmələrdə xidməti vəzifələrini yerinə yetirirdilər. Onlar ərazidən götürülmüş nümunləri analiz edir, müvafiq rəy hazırlayırlar. Dəstə rəhbəri tibb xidməti polkovnik-leytenantı Telman Əhmədxanov təlimin gedişi barədə qısaca məlumat verdi. Bildirdi ki, şəxsi heyət təlimə həvəslə qatılıb. "Həkim-mütəxəssislərimiz mövzunun dərindən mənimsənilməsi üçün səylə çalışırlar. Təlim prosesində bilik və vərdişlər daha da təkmilləşir. Verilən tapşırıqların öhdəsindən daha bacarıqla gələnlərdən tibb xidməti mayoru Hikmət Təhməzov, tibb xidməti baş leytenantı Fərid Məmmədov, tibb xidməti leytenantları Rəhilə Sofiyeva, Sevinc Qurbanova, baş əsgər Leyla Nağıyeva, kiçik çavuş İradə Məhərrəmova, baş çavuş Səbinə Əliyeva və başqalarının adlarını çəkmək istərdim.

Təlim meydançasında böyük canlanma var. Zabitlər və həkim-mütəxəssislərin hərəkətlərindən, söhbətlərindən tam əmin olduq ki, Sanitar-Epidemioloji Nəzarət Mərkəzinin şəxsi heyəti bütün döyüş tapşırıqlarının öhdəsindən gəlməyə hər an hazırdır.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

Publisistik düşüncələr

# Səs, işıq, Vətən



Söz də Vətəndi, işıq da...

Sözün işığı da Vətəndi, işığın sözü də...

Söz, işıq, Vətən kəlmələri məkana sığmayan düşüncələrimin göyqurşağına dönüb. Bunun sirri nədi, sirri nədədi?..

Gün çeşt yerindədi...

Abdulla Qurbani Lələtəpədən - Ləlimiz təpədən o yana baxanların sırasındadı. Baxışları əsgər baxışlarının qaynarlığına qarışıb. Bu munis görüşün məhrəmliyi sözə sığası deyil; əl əli isidir, göz gözdən, baxış baxışdan doymur. Doya bilmir. Hamı qarşı tərəfdə qımıldanan qaraltıların yox olmasının, əzəli sərhədlərimizin o üzünəcən uzaqlaşmasının təşnəsidi. Hər baxış Xəlil Rza Ulutürkün bir misrasıdı elə bil: "Çəkil, çəkil, ey qəsbkar!.."...

Abdulla Qurbani əsgərlərlə şair kimi, publisist kimi kəlmələşir. Dünən Tərtərdə kəlmələşirdi, bu gün Lələtəpədə. Vətənə, torpağa, Böyük Qələbəmizə ad olan kəlmələşmədi. Onu bura elə bu kəlmələşmə gətirməyibmi? Bu görüşün də dönməzliyindən qələbə qoxusu gəlir...

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Teymur Əliyev də danışmaq istəyir. Tərəddüdünü içində əridib danışır. Kəlmələri qırılır. Qırıq səs, qırılan kəlmələr Abdullanın ürəyini qana döndərir...

Teymur da döyüşüb. Cəsarətlə döyüşüb...

O da təltif olunub. "İgidliyə görə" medalı sinəsindədi. Abdulla ehtiramla əsgərə baxır, medala baxır. Bir az əvvəl Teymurun səsinin - kəlmələrinin qırıqlığını hiss eləməmişdi...

Niyə qırılır bu səs, bu səsin kəlmələri? Bu səs ki, yaxın vaxtlaracan dağları da dikəldərdi. Bu səs Vətən deyirdi, torpaq deyirdi. Bu səs əllərindən yapışıb qarşı tərəfə çəkirdi onu....

Aprel döyüşləri ərəfəsində hərbi həkim komissiyasındaydı Teymur...

Tərxis eləmək istəyiblər...

Ürəyi düşüncələrinə, düşüncələri ürəyinə hökm eləyib: "İşğal olunmuş torpaqlarımız azad edilənə kimi xidmət eləməlisən!.."...

Bir vaxtlar çiçəklərin ləçəklərinə sığal çəkən, dan yerinə qızartı düşəndə dağların-daşların yuxusunu dağıdan səsi haraylayırdı onu - hospitalda qərarlaşa bilməyib...

...Döyüşdə qırılıb səsi.

Yaxın vaxtlaracan Lələtəpənin harayına hay verən, o haraya sarılan, o hayın can köynəyinə dönən səsə sədəmə döyüşdə toxunub. Abdulla Qurbani o səsi görür - ürəyinin gözüylə görür. Qələbənin işığını görür o səsdə. O səsin ifadə eləmək istədiklərini yazdığı kitaba şəhd-şəkər bilib baxır o səsə. O səsi eşitmək istəyir, o səsin əlindən tutub Lələtəpəni aşmaq, Cəbrayıla, Şuşaya getmək istəyir. O səsin Xarı Bülbülün ləçəklərinə sığal çəkəcəyi anların həsrətindədi. O anlar eşginə bu anları gözlərinə, gözlərindən ürəyinə köçürür. Səngər ünvanlı düşüncələrində "Aprel döyüşləri - ruhumuzun qələbəsi" kitabı yazılmaqdadı...

Nəsə eləmək istəyir. O "nəsə"yə görə ürəyi kürlük eləyir...

İlham Zəkiyev düşür yadına...

İlham Zəkiyevin gözlərinin nuru ağı qaradan yaxşı seçirdi. O gözlərin nuru səngərin qarşı tərəfini aydınlığıyla görürdü. Gecələrin qaranlığı o nurdan çəkinirdi. Qaranlığa qısılanlar o nurdan yayına bilmirdi. Necələri yaşantısını o nurdan itirmişdi. O nur Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi ətrafında sərhədlərin sərhədlərindəniydi. O nur Vətən naminə şəhidlik sərhədini keçməyə də qadiriydi. İlhamın ürəyinin görünməyən işığı gözlərinin nurunu artırmaqdaydı.

İlham Zəkiyev əsgəriydi - kəşfiyyatçıydı, döyüşçüydü. Qarşı tərəfə meyillənən ayaqları daş əzirdi. Ayaqlarına ilişən daşları qarşı səngərlərin başına ələmək keçirdi könlündən...

Döyüşdə ağır yaralandı...

Gözlərinin nurunu itirdi...

Onda 1993-cü iliydi.

İndi 2016-cı ildi...

Abdulla Qurbani Teymur Əliyevin səsini belə görüncə İlham Zəkiyevə zəng eləyir...

Az sonra Abdulla Qurbani də, əhatəsində olduğu əsgərlər də Lələtəpədə dalğalanan bayrağımızın kölgəliyində kövrək bir mükalimələşmənin cazibəsindəydi. Abdulla Qurbani bu sıxıntıya könüllü düşmüşdü. Könlünü əzən, könlünə sızılcım düzən anlara könüllü təslim olmuşdu...

- Mənim gözlərimin nuru, sənin qırılan səsin Vətənimizin sadağası olsun, qardaş! - deyir İlham Teymura.

Abdulla Qurbani Teymurun qırılmış səsini ürəyiylə eşidir:

- Elədi...

Lələtəpə bir boy da dikəlir. Baxışları qarşı yaxadan yığılmayanlara "Bu itən nurla bu qırılmış səsin mükaliməsi sənin qələbə üverturan olacaq, əsgər! - deyirdi sanki. Bu səsi hamı eşidirdi. Abdulla Qurbani də, Teymur Əliyev də, əsgərlər də. Lələtəpədən uzaqlarda İlham Zəkiyev də eşidirdi, Füzuli rayonunun Aşağı Rəfiddinli kəndinin camaatı sırasında Teymurun övladları da...

Birinci Avropa Oyunlarında qalib gələndə İlham Zəkiyevin dalğalandırdığı bayrağımız Lələtəpədə göy üzünün gözəlliyidi. Bu gözəllik yaxın vaxtlarda arzuladığımız məkanlara köçəcək. Əsgərlərimiz köçürəcək!..

Bir qədər aralıdan "Lələtəpə fatehləri" mahnısının sədaları eşidilir...

Teymurun yaralanmış səsi baxışlarına hopub. O baxışlarda görünənləri hamı duyur: Səsimi İsa bulağının suyu sağaldacaq!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Əfqanıstanda xarici hərbçilərin patrulu hücuma məruz qalıb



Əfqanıstanın Pərvan əyalətində xarici hərbçilərin patrul dəstəsi yaxınlığında avtomobil partladılıb.

İnsidentin ABŞ silahlı qüvvələrinin və NATO qoşunlarının ən iri aviabazası olan Baqram hava limanı rayonunda baş verdiyi bildirilir. Hələ ki hadisə nəticəsində həlak olanlar və xəsarət alanlar barədə məlumat verilmir.

Bu, həmin rayonda baş verən ilk belə hadisə deyil. 2015-ci il dekabrın sonlarında ABŞ və Əfqanıstan müştərək hərbi patruluna edilən hücum nəticəsində 6 amerikalı hərbçi həlak olmuşdu.

### İraq ordusunun əl-Faluca şəhərini bombalaması nəticəsində 9 dinc sakin ölüb



İraq ordusu Ənbər vilayətinin əl-Faluca şəhərini bombalayıb.

Nəticədə beşi uşaq ikisi qadın olmaqla 9 dinc sakin həlak olub, 23 nəfər isə yaralanıb.

İraq rəsmiləri tərəfindən hadisə ilə bağlı heç bir açıqlama verilməyib.

### Rusiya Küveytə SSRİ-nin 1.7 milyard dollar borcunu qaytarıb



Rusiya Küveytə Sovet dövrünün borcunu ödəmə prosesini başa çatdırıb.

Rusiya Küveytə ümumilikdə 1.7 milyard dollar ödəyib. Maliyyə Nazirliyinin məlumatına görə, 1991-ci ildə SSRİ tərəfindən Küveytdən alınan 1.1 milyard dollar borcdan əlavə Rusiya 620 milyon dollar ödəniş edib. Nazirlik bildirir ki, 1.1 milyard pulla ödənilib, qalan hissə isə Rusiya istehsalı olan yüksək texnoloji məhsulla əvəzlənib. Borcun bu formada ödənilməsi ilə bağlı razılıq 2006-cı ildə əldə edilib. Rusiya bundan əlavə SSRİ-nin Koreya Respublikası, Makedoniya, həmçinin Bosniya və Herseqovina qarşısında borc öhdəliklərini də yerinə yetirməlidir.

### Avstraliya əhalisi kilsənin vergiyə cəlb edilməsini istəyir



Avstraliyada apreldə aparılmış ümumxalq səsverməsinə əsasən, əhalinin 64 faizi kilsənin vergiyə cəlb olunmasının tərəfdarıdır.

Yalnız 7 faizin rəyinə görə kilsə həmişəki kimi vergidən azad olmalıdır. Rəyi soruşulanların böyük əksəriyyətinin qənaəti belədir ki, dini təşkilatlar hər il milyonlarla gəlir götürürlər və bu sahədən vergi tutulmaması ölkə büdcəsində "ağ ləkə" yaranmasına səbəb olur.

### Suriyada silsilə terror aktları: 7 partlayış və 100-dən çox ölü



Suriyanın Lazkiya əyalətindəki Tartus və Cəblə şəhərlərində baş verən silsilə partlayışlar nəticəsində 100-dən çox insan həlak olub.

Mayın 23-də Suriya ərazisində 7 partlayış qeydə alınıb. Partlayışlardan 3-ü Cəblə şəhərindəki avtovağzalın qarşısında, biri isə şəhərdə yerləşən təcili yardım xəstəxanasının bölməsində baş verib. Bundan başqa, qonşu Tartus şəhərinin avtovağzalında da 3 partlayış törədilib. Partlayışların məsuliyyətini İŞİD qruplaşmasının üzərinə götürdüyü bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

# Kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında yazı müsabiqəsi keçirilir

Azərbaycan Mətbuat Şurası
MŞ
Azerbaijan Press Council

Azərbaycan Mətbuat Şurası Azərbaycanlıların və Digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi ilə birlikdə "Milli Ordumuzun aprel sınağı: vətənpərvərliyin Qarabağ vəhdəti və yeni qəhrəmanlıq salnaməsi" mövzusunda kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında yazı müsabiqəsi keçirir.

Mətbuat Şurasından AZƏRTAC-a bildiriblər ki, I yer üçün 1 nəfərə 800 manat, II yer üçün 2 nəfərə 500 manat, III yer üçün 3 nəfərə 300 manat, 10 nəfərə isə 100 manatdan həvəsləndirici mükafat veriləcək.

Təqdim olunmuş yazılarda materialların mövzunu dolğun əhatəetmə səviyyəsinə ("Aprel müharibəsi" və yüksək hazırlıqlı peşəkar zabit və əsgərlərin xidməti, "Aprel müharibəsi"nin Milli Qəhrəmanları Murad Mirzəyev, Samit İmanov və Şükür Həmidovun həyat və döyüş yolu, "Aprel müharibəsi"nin beynəlxalq ictimai rəydə təzahürü, "Aprel müharibəsi"nin Azərbaycan cəmiyyətində doğurduğu abhava və "Aprel müharibəsi" və Qarabağ münaqişəsinin həlli ilə bağlı perspektivlər), faktlardan istifadə xüsusiyyətləri və araşdırmanın keyfiyyətinə, ifadə vasitələrinin zənginliyinə, oxucu üçün informasiyalılıq dərəcəsinə, qabaqcıl dünya təcrübəsi ilə məzmunlu müqayisəyə üstünlük veriləcək.

Müsabiqəyə 2016-cı il mayın 25-dən iyunun 20-dək müddətdə qəzet, jurnal və informasiya agentliklərində, xəbər saytlarında yayımlanacaq yazılar buraxılacaq, dil və janr məhdudiyyəti nəzərdə tutulmur.

Yazılar 9-11 min işarədən (1 A3 formatlı qəzet vərəqindən) çox olmamalıdır.

Yazıda "Milli Ordumuzun aprel sınağı: vətənpərvərliyin Qarabağ vəhdəti və yeni qəhrəmanlıq salnaməsi" mövzusunda keçirdiyi müsabiqəyə təqdim olunur" qeydi edilməlidir.

Müəllifin konkret kütləvi informasiya vasitəsində çalışması şərtdir.

Müsabiqə üçün təqdim ediləcək materialın müəllifin çalışdığı KİV-də verilməsi şərt deyil.

Təqdim edilmiş yazıların Azərbaycan Mətbuat Şurasının "qara siyahı"sında yer alan kütləvi informasiya vasitələrində çıxması yolverilməzdir.

Müsabiqə üçün yazılar ayrıca zərfdə şəxsən təqdim olunmalıdır.

Təqdimat zərfində yazı təqdim edən şəxsin konkret kütləvi informasiya vasitəsində işlədiyini təsdiqləyən sənədin surəti, şəxsiyyət vəsiqəsinin surəti, əlaqə vasitələri - ev və iş telefonu, mobil telefonu yer almalıdır. Yazının getdiyi qəzet və jurnalın 1 nüsxəsi, yazı elektron media resursunda verilibsə, bunu təsdiqləyən link, materialın yazılı formada A4 formatlı kağız vərəqində 3 nüsxəsi (nüsxələrin hər birində materialın müsabiqə üzrə olan istiqaməti qeyd edilməli, müəllifin adı göstərilməməlidir), diskdə materialın elektron forması (Times New Roman şriftində, müəllifin adı qeyd olunmamaqla), yazı elektron media resursunda verilibsə, diskdə yazının linki göstərilməlidir.

Müsabiqə üçün yazılar mayın 26-dan iyunun 20-dək həftənin iş günləri saat 11.00-dan 17.00-dək Bakı şəhəri, Məmməd Araz-4 ünvanında (əvvəlki Teymur Əliyev-38 ünvanı - Azərbaycan Mətbuat Şurasının ofisi) qəbul ediləcək.

Qaliblərin adları 26 İyun Silahlı Qüvvələr Günü ərəfəsində açıqlanacaq.

Təqdimat prosesində müsabiqə qaydalarının hər hansı birinin yerinə yetirilməməsi qaydaların pozulması kimi qiymətləndiriləcək və material qəbul olunmayacaq.

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Hərbi Liseydə şeir və rəsm müsabiqəsi



*Mayın 20-də Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə birgə 26 İyun Silahlı Qüvvələr Gününə həsr olunmuş şeir və rəsm müsabiqəsinin final mərhələsi keçirildi.*

Müsabiqənin final mərhələsində əvvəlcə münsiflər heyəti foyedə kursantların rəsm əsərlərinə baxıb qalibləri müəyyən etdi. Vətənpərvərlik mövzusu müsabiqənin əsas qayəsi idi. Kətan üzərində yağlı boyada çəkilən "And içirəm" (Əmir Niftalıyev, taqım 1054, 3-cü kurs), Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun portret rəsmi (Məhəbbət Yəhyazadə, taqım 1054, 3-cü kurs), general Cəmşid Naxçıvanskinin portreti (Təbriz Əzizov, taqım 3134, 2-ci kurs), "Odlar yurdu" plakatı (Türkel Hüseynov, taqım 1043, 3-cü kurs), "Kəsilsin yurdumuza uzanan əl" (Elmin Qurbanov, taqım 3132, 2-ci kurs), "Qüdrətli ordumuz" (Nurəddin Hüseynov, taqım 2081, 1-ci kurs) və digər rəsm işləri müsabiqəyə təqdim edilmişdi.

Münsiflər heyətinin üzvləri - AHİK-in mütəxəssisi Xoşqədəm Bağırova, xalq artisti Nurəddin Mehdixanlı, xalq rəssamı Nazim Bəykişiyev, əməkdar incəsənət xadimi və əməkdar artist Qəmər Məmmədova, Hərbi Liseyin müəllimi Sahib Əsədov müsabiqəyə təqdim edilən rəsmləri yüksək qiymətləndirdilər.



Sonra tədbir bədii qiraət müsabiqəsinin final mərhələsi ilə davam etdi. Lisey rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant Kamran Nəsibov qonaqları, müəllim və kursant heyətini salamlayıb müsabiqənin iki mərhələdə keçirildiyini və milli-mənəvi dəyərlərimizin öyrənilməsində böyük rol oynadığını bildirdi.



AHİK-in mütəxəssisi X.Bağırova hər il liseylə birgə şeir və rəsm müsabiqələrini təşkil etdiklərini bildirərək gələcəyin Vətən müdafiəçiləri və müqəddəs peşə sahibləri olan kursantların hər biri ilə qürur duyduğunu dedi, hədiyyələri təqdim etdi.

Sonra kursantların ifasında "Azərbaycan əsgəri" bədii qiraət müsabiqəsinə təqdim edilən şeirləri dinlənildi. Müsabiqədə Ramiz Duyğunun "Süngünü daşnakın ürəyinə sanc", Ramiz Qusarçaylının "Azərbaycan bayrağı", Bəxtiyar Vahabzadənin "Vətən oğlu", Məmməd Arazın "Qalx ayağa, Azərbaycan", Nəriman Həsənzadənin "Azərbaycan" və başqa şairlərin vətənpərvərlik mövzusunda şeirləri səsləndirildi.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Döyüşən sətirlər*

# Məğrur dayan, Vətən oğlu!

*Silahlı Qüvvələrimizin zabit və əsgərləri aprelin ilk günlərində erməni işğalçılarının hücumlarını dəf edərək qəhrəmanlıq tariximizə yeni şərəfli səhifələr yazdılar. Elə bir səhifə ki, zaman-zaman onu oxuyanlar qürur hissləri keçirəcəklər. Ordu hissələrinin düşmənlə son döyüşdə qazandığı uğurlar, qələbələr bu gün hər kəsi sevindirir. Silahlı Qüvvələrimizin aprel zəfəri şair və yazıçılarımızı da ruhlandırır. Onlar ilhamla qələmə sarılaraq vətənpərvərlik ruhunda yeni-yeni əsərlər yazırlar. Bu gün mətbuat səhifələrində zabit və əsgərlərimizin igidliyini, qəhrəmanlığını tərənnüm edən bir-birindən məzmunlu şeirlər, hekayələr dərc olunur. Bu yaxınlarda mətbuat səhifələrində döyüşçülərimizə ünvanlanmış "Məğrur dayan, Vətən oğlu!" şeiri diqqətimizi çəkdi.*

**"Azərbaycan Ordusu"**

### Məğrur dayan, Vətən oğlu!

Məğrur dayan, Vətən oğlu,
Dağıt getsin səngərləri.
Daha yoxdur hesab, sorğu,
Qov yurdundan düşmənləri.

Zəfər sənin, şan sənindir,
Torpağını azad elə.
O, yurd yeri Vətənindir,
Hücuma keç Vətən deyə.

Vətən oğlu, igid əsgər,
Güc səndədir, qüdrət səndə.
Qura bilməz düşmən səngər,
Sən coşanda, kükrəyəndə.

Qələbəyə az qalmısan,
Bu tarixi bir savaşdır.
Torpağından güc almısan,
Bu döyüşdür, qana-qandır.

Xalq dayanıb arxanızda,
Çox güclüsən, qüvvətlisən.
Mətin durun sıranızda,
Məğlub olur mənfur düşmən.

Bu qələbə, zəfər bizim,
Azad edin Qarabağı.
Qoy sürünsün dizin-dizin,
Qarşınızda düşmən, yağı.

Qeyrətinə qurban oldum,
Ey, Azərbaycan əsgəri!
Yürüşünə heyran oldum,
Can, Azərbaycan əsgəri!

Qarşınızda tab gətirmir
Kafir oğlu, ermənilər.
Silahların qoyub gedir,
Əhsən sizə igid ərlər.

Bu, üçrəngli bayrağımız,
Xankəndinə taxılacaq.
Gül açdıqca torpağımız,
Xain düşmən sarsılacaq.

Əhsən sizə igid əsgər,
Qarşınızda baş əyirəm!
Əhsən sizə igid ərlər,
Sizə alqışlar, deyirəm!

**Qələndər XAÇINÇAYLI**

# Xarici hərbi xronika

### Rusiyanın 57 mm toplu özüyeriyən artilleriya kompleksi

"RİA" Agentliyinə müsahibəsində "Burovestnik" Elmi Mərkəzinin baş direktoru Zakamenin bildirib ki, artıq yeni silahlanma və hərbi texnikaların yaradılması üzrə müasir layihələr üzərində işlər davam etməkdədir. Daha sonra o, hava hücumundan müdafiə qoşunlarının marağını nəzərə alaraq yeni zenit artilleriya kompleksinin yaradılmasını və bu kompleksin 57 mm-li topla təchiz edilməsini də qeyd edib. Hazırda özüyeriyən "Tunqus" və "Pantsir-S1" kompleksləri 300 mm-li avtomat topla təchiz olunub ki, onlar da yaxın məsafədən hava hədəflərini məhv etmək üçün nəzərdə tutulub. Həmçinin bu komplekslər idarəolunan raketlərlə də təchiz olunub.

Döyüş modulu olan Ay-220 M-in yeni variantı özündə xüsusi qülləni təsvir edəcək. Modulun qalan cihazlanması dayaq platformasında quraşdırılacaq. Platformanın üst hissəsi zirehli kürklə örtüləcək. Kürk topun əsas hissəsini və təchizat bölümünü qoruyacaq. Ön hissədə top üçün pəncərə olacaq. 57 mm-li top maska ilə təchiz ediləcək. Döyüş modulunun uzunluğu 5.82 metr, eni 2.1 m, hündürlüyü isə 1.3 metrə çatacaq. Bundan başqa, burada müxtəlif avadanlıqlar da quraşdırılacaq. Toplar dəqiqədə 200-ə qədər atəş aça biləcək. Döyüş dəsti 200 mərmidən ibarətdir. Zirehdeşən və digər mərmilərdən də istifadə oluna bilər. Atəş uzaqlığı 12 kilometrə qədərdir.

### Yaponiyanın ehtiyat gəmiləri

Bir çox ölkələrin donanmalarının əsas ehtiyat qüvvələri sahil mühafizəsi sayılır. Yaponiyanın sahil mühafizəsi çoxlu sayda müxtəlif təyinatlı, müxtəlif su basımına malik olan gəmilərə və uçan aparatlara malikdir. Bu gəmilər arasında daha diqqət çəkəni "Şikişima" sinfindən olan gəmidir. Onun su basımı 6500 ton, tam halda isə 9300 ton təşkil edir. Uzunluğu 150 metr, heyəti isə 140 nəfərdir. Gəmi geniş helikopter meydançasına və anqara malikdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 368
Nüsxə 4720